# Sənaye siyasəti və qeyri-neft sektorunun inkişafi

Sabit Bağırov

# SƏNAYE SİYASƏTİ NƏDİR?

- istənilən siyasət kimi bu da tədbirlər kompleksidir (subyekti – hökumət, obyekti – iqtisadiyyatın müxtəlif agentləri və institutlarıdır);
- hökumətin iqtisadiyyatı tənzimləmə üsuludur (inkişaf modelidir);
- iqtisadiyyatın müəyyən agentlərinə güzəştlərin, preferensiyaların verilməsi, subsidiyalar və kreditlərlə təmin edilməsidir;
- dövlətin institusional islahatların aparılması modelidir (Aleksandr Auzan – MDU, Tətbiqi İnstitusional İqtisadiyyat kafedrasının müdiri);
- renta gəlirinin digər sahələrə bölüşdürülməsi üsuludur

# SƏNAYE SİYASƏTİNİN MƏQSƏDLƏRİ:

Tərəfdarların fikrincə:

- iqtisadi artımı təmin etmək;
- əhalinin rifahını yüksəltmək

# SƏNAYE SİYASƏTİNİ NƏ İLƏ ƏSASLANDIRIRLAR

dövlətin müəyyən tarixi mərhələsində qaçılmazdır. Milli sənayenin yenidən qurulması və modernləşdirilməsi dövlətin köməyini tələb edir;

- milli iqtisadiyyatda yeni struktur siyasətin tədbiqi dövlətin müdaxiləsi yolu ilə mümkündür;
- milli sənayenin yenidən qurulması və modernləşdirilməsi dövlətin köməyini tələb edir;
- neft sektorunun digər sahələri sıxıştırması;
- Hökumət – Biznes – Cəmiyyət üçbucağında tarazlıq yaradan amildir

# SƏNAYE SİYASƏTİNİ ƏSASLANDIRARAQ DİGƏR ÖLKƏLƏRDƏN NÜMUNƏLƏR GÖSTƏRİRLƏR

- İtaliyada dövlətin «Sənayenin Yenidənqurulması İnstitutu». Dünyanın ən nəhəng xoldinqlərindən biridir. Sənayenin müxtəlif sahələrindən 150 müəssisəni birləşdirir, işçilərin sayı – 330 min, illik dövriyyəsi 50 mlrd ABŞ dollarından artıq;
- Fransanın RENAULT dövlət şirkəti;
- Fransanın Snecma Group dövlət şirkəti – dünyada mühərrik istehsalı sahəsində 4-cü şirkət

# SƏNAYE SİYASƏTİNİ İNKAR EDƏRƏK

Əleyhdarları deyirlər ki:

- bazar iqtisadiyyatında bu siyasət yürüdülməməlidir. Bu siyasət planlı iqtisadiyyata xasdır;
- bu siyasət korrupsiyaya yol açır;
- ədalətli rəqabət mühitini pozur;
- müasir iqtisadiyyatlar çox dinamikdir və oncədən uzun müddətə uğurlu sənaye siyasətini planlaşdırmaq mümkün deyil

# FƏRQLİ İNKİŞAF MODELLƏRİ

Norvec, Finlandiya:

- təbii ehtiyatların istismarından – emal sənayesinə və yüksək texnologiyalara doğru

İsrail, Cənubi Koreya:

- birbaşa elmtutumlu yüksək texnologiyalara doğru

# SƏNAYE SİYASƏTİNİN FORMALARI

- sərt;
- yumşaq;
- genişmiqyaslı;
- məhdudmiqyaslı;
- uzunmüddətli;
- qısamüddətli;

# SƏNAYE SİYASƏTİNİN SƏMƏRƏLİLİYİ

Əsas amillər:

- yaxşıdüşünülmüş;
- dövlət aparatının səmərəliliyi;
- yerlərdə səmərəli menecerlik

# AZƏRBAYCAN SƏNAYESİ

2005 – ci ilin nəticələrinə əsasən:

– ÜDM-də neft cektorunun payı – 41.3 %

– ÜDM-də sənayenin payı – 47.5 %

2006 –cı ildə ÜDM artım tempi 35% olub, neft sektorunda – 62%, qeyri-neft sektorunda 12%

Azərbaycan sənaye siyasəti yürütməlidirmi?

Sənaye siyasəti qeyri-neft sektorunun inkişafında labüddürmü?

# AZƏRBAYCANDA SƏNAYE SİYASƏTİ NECƏ OLMALIDIR?

Bəzi təxminlər:

- orta (10 illik) müddətə yönəlmiş (liberal iqtisadiyyat – son hədəf);
- sahəvi;
- emal sənayesinin inkişafına yönəlmiş (üstünlüyü özəl biznesə verməklə);
- infrastrukturun inkişafına yönəlmiş (rentabelliyi uzun muddətdə təmin edilən);
- investisiyaları təşviq edən (özəl biznes özü yaxşı inkişaf edən sahələrə yönəlməməlidir);
- iqtisadiyyatımızın rəqabətədavamlılığını artıran;
- iqtisadiyyatımızı dünya iqtisadiyyatına qovuşduran;

# AZƏRBAYCANDA SƏNAYE SİYASƏTİ NECƏ OLMALIDIR?

Başlıca şərt:

- sənaye siyasəti hökumətin, biznesin və cəmiyyətin konsensusuna əsaslanmalıdır

# TƏŞƏKKÜRLƏR